YUBİLEY

*Kərim Tahirov – 70*

## AZƏRBAYCAN MİLLİ KİTABXANASININ FƏALİYYƏTİNDƏ PROFESSOR KƏRİM TAHİROV MƏRHƏLƏSİ



*12 noyabr 2021-ci ildə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət İşçisi, professor Kərim Məhəmməd oğlu Tahirovun 70 yaşı tamam olur.*

*Kərim Tahirov 1951-ci ildə Ağcabədi rayonunda anadan olub.*

*1973-1978-ci illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində təhsil alıb.*

*1978-1983-cü illərdə Azərbaycan Milli Kitabxanasında böyük kitabxanaçıdan bölmə müdiri vəzifəsinə qədər yüksəlib.*

*1983-2000-ci illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində məsul vəzifələrdə çalışıb.*

*2000-2005-ci illərdə Azərbaycan Milli Kitabxanasında direktor müavini vəzifəsində işləyib.*

*2005-ci ildən Azərbaycan Milli Kitabxanasının direktorudur.*

*2009-cu ildə professor Abuzər Xələfovun elmi rəhbərliyi ilə "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-2008-ci illər)" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək tarix üzrə fəlsəfə doktoru*





*alimlik dərəcəsinə layiq görülüb. 2012-ci ildə dosent, 2013-cü ildə professor elmi adlarını alıb.*

*Ömrünü Azərbaycan mədəniyyətinin, kitabxana işinin inkişafına həsr edən professor Kərim Tahirovun tarixi araşdırmaları Milli Kitabxananın yeni inkişaf strategiyasının formalaşmasında mühüm rol oynayır.*

*Professor Kərim Tahirov Azərbaycan Milli Kitabxanasının direktoru vəzifəsində çalışdığı dövrdə kitabxananın bütün fəaliyyət istiqamətlərində, o cümlədən beynəlxalq əməkdaşlıq sahəsində bir sıra nailiyyətlər qazanılıb. Onun məqsədyönlü fəaliyyəti, idarəetmə bacarığı, yüksək təşkilatçılıq qabiliyyəti Milli Kitabxananın göstəricilərində özünü bariz şəkildə nümayiş etdirib. Belə ki, burada yeni texnologiya və metodların tətbiq edilməsi, kompüterləşdirmə işinin maddi-texniki bazasının, proqram təminatın və server sisteminin yaradılması, keyfiyyətli internet rabitəsinin təşkil edilməsi istiqamətində həyata keçirilən işlər uğurla nəticələnib. Milli Kitabxananın geniş məzmunlu İnternet saytının istifadəyə verilməsi oxuculara elektron kataloqa onlayn şəkldə daxil olmaq imkanı yaradıb.*

*Ayrıca vurğulamaq lazımdır ki, Milli Kitabxananın fondunu təşkil edən sənədlərin mühüm hissəsinin elektron kataloqda əks etdirilməsi üçün kitabxananın işçi qüvvəsi Kərim Tahirovun səriştəli rəhbərliyi sayəsində operativ qaydada səfərbər edilib. Yeni texnologiyaların tətbiqində yeniliklərə imza atan Milli Kitabxananın təcrübəli kollektivi qarşıya qoyulan mürəkkəb vəzifəni uğurla həyata keçirməyə, fondda saxlanılan sənədləri əks etdirən ənənəvi kataloq-kartoteka sistemindəki informasiyanın qısa müddətdə elektron kataloqa keçirilməsinə nail olub. Oxuculara xidmət sahələrinin tam şəkildə avtomatlaşdırılması təmin olunub. Kitabxananın elektron kataloqu və elektron kitabxanası yaradılıb. Görülən təxirəsalınmaz işlər nəticəsində 2008-ci ildən başlayaraq həm Azərbaycanda, həm də dünyanın ayrı-ayrı ölkələrində yaşayan çoxsaylı istifadəçilər həmin kataloqa daxil olaraq müəlliflik hüququnun şərtlərinə əməl etməklə lazımi sənədin elektron nüsxəsini sifariş vermək imkanına malik olurlar.*

*Professor Kərim Tahirovun təşəbbüsü və başçılığı ilə "Məlumat bazası" adlı tematik onlayn informasiya toplularının tərtib edilib Milli Kitabxananın saytında istifadəçilərə təqdim olunması da təqdirəlayiq layihələrdədir. Görkəmli şəxslərə, əlamətdar hadisələrə, müxtəlif yubileylərə həsr edilən həmin informasiya məhsulları özünün aktuallığı, illüstrativ materialların rəngarəngliyi, mövzu ilə əlaqəli biblioqrafik siyahıları, cəlbedici dizaynı ilə maraq doğurur.*

*2008-ci ildə Rusiya Dövlət Kitabxanasının Elektron dissertasiyalar fondundan istifadə edilməsi üçün Milli Kitabxanada xüsusi guşənin yaradılması, daha sonra Azərbaycanda Kitabxanada müdafiə edilmiş dissertasiyaların avtoreferatlarının tam mətninin İnternet vasitəsilə istifadəsi üzrə layihələrin həyata keçirilməsi məhz professor Kərim Tahirovun fəal işgüzarlığ sayəsində gerçəkləşib.*

*Xüsusi qeyd etmək lazımdır ki, pandemiya dövründə kitabxananın oxucular üçün bağlanması səbəbindən istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün Milli Kitabxananın saytında yeni "Onlayn xidmətlər" pəncərəsi yaradılıb. Onlayn xidmətlər pəncərəsinin "Biblioqrafik sorğu", "Sənədlərin sifarişi və elektron çatdırılması", "Metodiki xidmət", "Virtual sərgi" bölmələri daim*

*aktivdir və istifadəçilərin elektron informasiya tələbatının ödənilməsində böyük əhəmiyyət kəsb edir.*

*Bundan başqa, Milli Kitabxanada Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi və Azərbaycan Ordusunun şücaəti ilə erməni işğalından azad olunan Ağdam, Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavənd rayonlarının Mərkəzləşmiş Kitabxana Sistemlərinin direktorları ilə onlayn videokonfransların keçirilməsi, yeni şəraitin tələblərinə uyğun təxirəsalınmaz vəzifələrin müəyyənləşdirilməsi yaddaqalan tədbirlərdən olub.*

*Professor Kərim Tahirovun rəhbərliyi dövründə Milli Kitabxananın dünyanın kitabxana işi sahəsində aparıcı təşkilatları, digər ölkələrin milli kitabxanaları, elmi müəssisələri ilə əlaqələrinin yaradılması və onlarla qarşılıqlı əməkdaşlığın təşkil edilməsi mühüm əhəmiyyətə malikdir. Bu baxımdan Milli Kitabxananın dünyada kitabxana işi sahəsində əsas beynəlxalq təşkilat olan IFLA-nın (Kitabxana Assosiasiyaları və Təsisatlarının Beynəlxalq Federasiyası), eləcə də Avropanın milli kitabxanalarının işini inkişaf etdirmək missiyası daşıyan, 46 ölkənin milli kitabxanalarını əhatə edən CENL-in (Avropa Milli Kitabxanalar Konfransı Təşkilatı) üzvü seçilməsi mühüm nailiyyətlərdən hesab oluna bilər. Bundan başqa, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası MDB ölkələrinin aparıcı kitabxanaları tərəfindən yaradılmış Avrasiya Kitabxana Məclisinin üzvü və təsisçilərdən biridir. Bu təşkilat MDB ölkələrinin 8 kitabxanasını öz sıralarında birləşdirir.*

*Bununla yanaşı, professor Kərim Tahirovun tövsiyəsi və başçılığı ilə Milli Kitabxana müntəzəm olaraq dünya ölkələrinin bir çox milli kitabxanaları və digər mədəniyyət müəssisələri ilə beynəlxalq kitab mübadiləsi aparır, işgüzar səfərlər, yaradıcılıq ezamiyyələri, aktual mövzularda sərgilər s. təşkil edir. Elə bunun nəticəsidir ki, Azərbaycan Milli Kitabxanası ilə 34 xarici ölkənin milli kitabxanası arasında qarşılıqlı əməkdaşlığa dair memorandumlar imzalanıb.*

*Professor Kərim Tahirov 50-dən artıq kitabın, 300-ə yaxın elmi məqalənin müəllifidir. Alimin "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008-ci illər)" monoqrafiyası, "Dünya milli kitabxanaları: M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası" dərs vəsaiti, eləcə də digər əsərləri elmi ictimaiyyətin rəğbətini qazanıb. O, "Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri"nin, "Əlamətdar və tarixi günlər təqvimi"nin, on cildlik "Azərbaycan kitabı" milli biblioqrafik repertuarının baş redaktoru, bir çox kitab, kitabça, metodik vəsait və fundamental biblioqrafik göstəricilərin müəllifi, tərtibçisi və redaktorudur.*

*Professor Kərim Tahirov dünyanın 40-dan artıq ölkəsində keçirilən elmi konfranslarda və simpoziumlarda məruzələrlə çıxış edib, məqalələri bir sıra ölkələrin elmi jurnallarında dərc olunub.*

*Professor Kərim Tahirov "Azərbaycan Kitabxana Ensiklopediyası"nın hazırlanması işinə rəhbərlik edib, ölkəmizdə ilk dəfə 2015-ci ildə işıq üzü görən həmin soraq-məlumat nəşrinin baş redaktoru olub.*

*Professor Kərim Tahirov eyni zamanda uzun illərdən bəri Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində və Respublika Mədəniyyət*





*Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində pedaqoji fəaliyyətlə məşğul olur, gənc ixtisaslı kadrların yetişdirilməsinə xidmət göstərir. 2006-cı ildən Bakı Dövlət Universitetinin kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisasları üzrə Dövlət İmtahan Komissiyasının sədri, 2007-ci ildən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi yanında Ekspert Komissiyasının sədri, 2014-cü ildən isə Milli Kitabxananın Elmi Şurasının sədridir. Qeyd edək ki, Azərbaycan Milli Kitabxanasının Elmi Şurası kitabxananın fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmək, elmi-tədqiqat və nəşriyyat fəaliyyətinin perspektivlərini müəyyən etmək, kitabxananın işinin və strukturunun dövrün tələblərinə uyğun qurulmasına kömək məqsədilə yaradılıb.*

*Alim həmçinin kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası üzrə bir neçə magistrantın və fəlsəfə doktorunun elmi rəhbəri və rəsmi oponenti olub.*

*Professor Kərim Tahirov 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına müvafiq olaraq "Milli-mənəvi dəyərlərimizin vətənə qayıdışı" layihəsi çərçivəsində dahi Nizaminin dünya kitabxanalarında mühafizə olunan 150-dən artıq əlyazmalarının digital surətlərinin Milli Kitabxanaya gətirilməsinə və elektron bazasının yaradılmasına, habelə onlardan ən əhəmiyyətlilərinin bir nüsxə çap olunaraq Milli Kitabxananın nadir fonduna verilməsini təmin edib. Eyni zamanda alim "Nizami Gəncəvi: Biblioqrafiya" adlı fundamental kitabın müəllifi və elmi redaktoru kimi dahi Azərbaycan şairinin yubileyinə sanballı töhfə verib.*

*Professor Kərim Tahirovun fəaliyyəti dövlət tərəfindən layiqincə qiymətləndirilib. O, Milli Kitabxananın fəaliyyətinin səmərəli təşkilinə və inkişafına görə 2008-ci ildə "Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülüb, 2013-cü ildə "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Çoxsaylı Fəxri Fərman, döş nişanı və diplomlarla mükafatlandırılıb.*

*Prezident İlham Əliyevin 17 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda kitabxana işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.*

*"Kitabşünaslıq və redaktor sənəti" elmi-nəzəri və təcrübi-metodik jurnalının redaksiya heyətinin üzvü, tanınmış alim, təcrübəli müəllim, qayğıkeş rəhbər, ictimai xadim, professor Kərim Tahirovu 70 illik yubileyi münasibətilə təbrik edir, sağlıqlı uzun ömür və çoxşaxəli fəaliyyətində uğurlar diləyirik!*

**Knyaz ASLAN,**
**BDU-nun Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**